**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# “QIZIL ÇARX” MÜKAFATLARI SAHİBLƏRİNƏ TƏQDİM EDİLDİ

*Mükafat Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) yaradılmasında əməyi olan şəxslərə verildi*

**No: 10/02/119**
**17.03.2010**

17 mart 2010-cu ildə Excelsior otelində Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) “Qızıl Çarx” mükafatının təqdimetmə mərasimi keçirilib.

Hər il ənənəvi olaraq ATİB Azərbaycan və Türkiyə arasında münasibətlərin inkişaf etdirilməsi və iki ölkənin regional nüfuzunun artmasına ən çox töhfə verən hadisə üzrə müxtəlif nominasiyalarda “Qızıl Çarx” mükafatlarını təqdim edir.

ATİB İdarə Heyətinin qərarına əsasən, 2009-cu il üzrə Ənənəvi “Qızıl Çarx” mükafatları Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) yaradılması və fəaliyyətə başlaması, həmçinin Azərbaycan və Türkiyə arasında parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi, Türkdilli ölkələr arasında biznes əlaqələrinin inkişaf etdirilməsi üzrə təqdim edilib.

ATİB İdarə Heyəti bu münasibətlə üç nominasiyada – “İlin Dövlət Adamı”, “İlin Qeyri-Hökumət Təşkilatı”, “İlin Elm Adamı” nominasiyaları üzrə mükafatların verilməsi barədə qərar qəbul edib. Eyni zamanda, bu il məxsusi olaraq “Xüsusi Təşəkkür Mükafatı” təsis edilib.

Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov və Türkiyə Böyük Millət Məclisinin sədri Məhmət Əli Şahin Azərbaycan və Türkiyə arasında parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi və Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) yaradılması və fəaliyyətə başlamasında verdikləri töhfəyə görə “İlin Dövlət Adamı” nominasiyasında mükafata layiq görülüblər.

Azərbaycan və Türkiyə arasında parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi və Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) yaradılması və fəaliyyətə başlamasında verdiyi töhfəyə görə Türkiyə Böyük Millət Məclisinin sabiq sədri Köksal Toptan “Xüsusi Təşəkkür Mükafatı”na layiq görülüb.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**

“İlin Elm Adamı” mükafatı Türk dünyası ilə bağlı apardığı tədqiqatlara, həmçinin Azərbaycan və Türkiyə arasında parlamentlərarası əlaqələrin inkişafında və Türkdilli Ölkələrin Parlament Assambleyasının qurulmasında verdiyi töhfəyə görə Azərbaycan Respublikası Milli Məclisinin üzvü, Mədəniyyət Komitəsinin sədri, Azərbaycan - Türkiyə Parlamentlərarası Dostluq Qrupunun həmsədri, Atatürk Mərkəzinin rəhbəri Nizami Cəfərov və Türkiyə Respublikasının sabiq dövlət naziri Abdulhalık Çaya təqdim edilib.

İdarə Heyətinin qərarı ilə “İlin Qeyri-Hökumət Təşkilatı” nominasiyası üzrə mükafat türkdilli ölkələr arasında biznes əlaqələrinin inkişafında verdiyi töhfəyə görə Türkiyə Palatalar və Birjalar Birliyinə (TOBB) verilib.

Xatırladaq ki, “Qızıl Çarx” mükafatı dördüncü ildir ki, təqdim edilir. 2006-cı ildə təqdim edilən mükafat zamanı ilin hadisəsi kimi Bakı şəhərindən Şimali Kipr Türk Cümhuriyyətinə (ŞKTC) təşkil edilən birbaşa təyyarə reysi seçilmiş və “İlin Dövlət Adamı” mükafatı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, “İlin İş Adamı” mükafatı cənab Füzuli Ələkbərova, “İlin Qeyri-Hökumət Təşkilatı” mükafatı ŞKTC-nin Sənaye Palatasına, “İlin Sənətçisi” mükafatı Azərinə təqdim edilmiş; 2007-cı ildə təqdim edilən mükafat zamanı ilin hadisəsi kimi BTC neft boru kəmərinin fəaliyyətə başlaması seçilmiş və “İlin Dövlət Adamı” mükafatı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Gürcüstan Respublikasının Prezidenti cənab Mixail Saakaşvili və Türkiyə Respublikasının Baş Naziri cənab Recep Tayyip Erdoğana, “İlin Qeyri-Hökumət Təşkilatı” mükafatı ABŞ Azərbaycan Ticarət Palatasına (USACC) və Mərmərə Fonduna, “İlin Şirkəti” mükafatı “BTC Co” və “BOTAŞ A.Ş.” şirkətlərinə təqdim edilmiş, həmçinin Türkiyə Respublikasının 9-cu Prezidenti Süleyman Dəmirəl və ABŞ-ın 42-ci Prezidenti William Jefferson Clinton “Xüsusi Təşəkkür Mükafatı” ilə təltif edilmişlər. 2008-ci ildə təqdim edilən mükafat zamanı ilin hadisəsi kimi Qara dəniz və Xəzər dənizi Sahibkarlar Konfederasiyaları Birliyi (UBCCE) müəyyən edilmiş, “İlin Dövlət Adamı” mükafatı Türkiyə Respublikasının Dövlət naziri Kürşat Tüzmen, “İlin İş Adamı” mükafatı Ömər Sabançı (Sabançı Holdinq Müşahidə Şurasının üzvü), “İlin Qeyri-Hökumət Təşkilatı” mükafatı Türkiyə Sənayeçi İş Adamları Dərnəyi (TÜSİAD) “İlin Şirkəti” mükafatı Azercell BM, “İlin Elm Adamı” mükafatı Dr. Haluk Tükelə təqdim edilmişdir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**